# Azərbaycan nüfuzlu beynəlxalq qurumlara uğurla sədrlik edir



***Bir neçə gün əvvəl ölkəmizin daha bir mötəbər quruma sədrlik edəcəyi xəbərini eşitdik. Təbii ki, bu, xalqımız üçün qürurverici xəbərdir. Çünki Azərbaycan müstəqilliyini bərpa etdikdən bir müddət sonra daha dəqiq desək, 1993-cü ilin ikinci yarısından başlayaraq, nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığı və həmin təşkilatların fəal üzvünə çevrilməyi dövlət siyasətinin prioriteti hesab etdi. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu həmin siyasət bu gün də möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son 18 ildə ölkəmiz nəinki nüfuzlu beynəlxalq təşkilatların fəal üzvünə çevrilib, hətta həmin təşkilatlara uğurla sədrlik də edir.***

Bir neçə gün əvvəl Bakda, Milli Məclisdə İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (İƏTPA) Üçüncü Ümumi Konfransında bu quruma sədrlik Pakistan İslam Respublikasının Milli Assambleyasından Azərbaycan Respublikasının Milli Məclisinə keçəndə bu hadisə hər bir soydaşımızda qürur hissi yaratdı. Qeyd etdiyim kimi, bu xəbərə təəccüblənmədik. Çünki belə qürurverici xəbəri birinci dəfə deyildi ki, eşidirdik. İndiyədək Azərbaycan bir neçə mötəbər quruma uğurla sədrlik edib. Bu baxımdan Azərbaycan Respublikasının Milli Məclisi sədrliyini təhvil aldığı assambleyanın fəaliyyətinin gücləndirilməsi, parlamentlərarası əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində öz səylərini əsirgəməyəcək və ona göstərilən etimadı doğruldacaq. Xatırladaq ki, İqtisadi Əməkdaşlıq Təşkilatı mühüm regional qurumdur və üzv ölkələrlə həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlığın inkişafında maraqlıdır.

İƏT-ə üzv olan xalqları birgə tarix, mədəniyyət, ənənələr və din amili birləşdirir. Bu mənada, xalqlarımızın təmsilçiləri kimi, parlament üzvləri xüsusi məsuliyyət daşıyır. İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyası təşkilatın hədəf və məqsədlərinin reallaşdırılmasını dəstəkləməklə yanaşı, parlamentlərarası əlaqələrin gücləndirilməsinə, xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına öz töhfəsini verir. Bu baxımdan ölkəmizin quruma sədrliyi ciddi məsuliyyət tələb edir. Ümid edirik ki, Azərbaycan həmişə olduğu kimi, bu sınaqdan da alnıaçıq, üzüağ çıxacaq və beynəlxalq hüququn norma və prinsiplərini əsas tutaraq, quruma sədrliyi müddətdə qarşıya qoyulan məqsədlərə nail olacaq.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xarici siyasətini beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, daxili işlərə müdaxilə edilməməsi prinsipləri əsasında qurub. Bu prinsipləri rəhbər tutan rəsmi Bakının yürütdüyü xarici siyasət Azərbaycanın müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə və milli təhlükəsizliyinə təhdidlərin və risklərin aradan qaldırılması kimi həyati əhəmiyyətli məqsədə xidmət edir. Xüsusilə, milli mənafelərin qorunmasına xidmət edən xarici siyasət kursunun əsasını, ilk növbədə, Azərbaycanın beynəlxalq təşkilatlarda təmsil olunmasını təşkil edib. Həm ulu öndər Heydər Əliyev, həm də Prezident İlham Əliyev ölkəyə rəhbərlik etdikləri dövrdə nüfuzlu qurumların tribunalarından çox bacarıqla istifadə edərək, Ermənistanın Azərbaycana təcavüzünün nəticələrini, respublikamız haqqında obyektiv məlumatları dünyaya çatdırmış, milli maraqlarımızın, dövlətçiliyimizin, müstəqilliyimizin qorunması yolunda bütün imkanlardan istifadə etmişdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə milli maraqlarımızı əsas götürərək, xarici siyasətin prioritetlərinin ardıcıl surətdə həyata keçirilməsi nəticəsində əldə olunan uğurlar gələcəyə ümidlə baxmağa əsas verir. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən iki il sonradan başlayaraq, indiyədək regional və qlobal səviyyədə fəaliyyəti, o cümlədən, beynəlxalq aləmdə əməkdaşlığı getdikcə genişləndirdi. Bu gün respublikamızın müstəqil dövlət kimi nüfuzlu beynəlxalq təşkilatlara, o cümlədən, BMT, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, Qoşulma Hərəkatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (indi Türk Dövlətləri Təşkilatıdır). və çoxlu sayda digər təşkilatlara üzvlüyü hər birimizi qürurlandırır. Azərbaycan, həmçinin GUAM regional qrupunun təsisçilərindən biridir.

Ölkəmiz, hazırda Qoşulmama Hərəkatının sədri kimi üzərinə düşən vəzifəni layiqincə yerinə yetirir. Yeri gəlmişkən, ölkəmizin QH-yə sədrliyi dövründə həyata keçirdiyi tədbirlər üzv dövlətlər tərəfindən yüksək dəyərləndirilmişdir. Ona görə də quruma üzv dövlətlər Azərbaycanın bu təşkilata daha 1 il də sədrlik etməsi barədə müraciət ünvanlayıblar. QH-yə üzv dövlətlərin müraciəti müsbət cavablandırılıb.

2011-ci ilin oktyabrında Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi müstəqillik tariximizdə ən böyük siyasi hadisələrdən biri oldu. Hətta, əcnəbi ekspertlərin də qeyd etdikləri kimi, Azərbaycan həmin vaxta qədər BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməklə, xarici siyasətdə ən böyük uğurlardan birini qazandı. Bu məqsədlə keçirilən seçkilərdə 155 ölkənin səsini qazanaraq, tarixi nailiyyətə imza atan ölkəmiz 2012-ci il yanvarın 1-dən BMT Təhlükəsizlik Şurasında səlahiyyətlərinin icrasına başlamışdır. Azərbaycan bu nüfuzlu təşkilata qeyri-daimi üzv olduğu müddətdə müxtəlif vaxtlarda quruma iki dəfə sədrlik edib. 2012-ci il mayın 1-dən Azərbaycanın BMT Təhlükəsizlik Şurasına birinci sədrliyi başladı. Bir ay sədrlik müddətində ölkəmiz əsas diqqəti, Yaxın Şərq, nüvə silahının yayılmaması, terrorizmə qarşı mübarizə, Balkanlarda vəziyyət və Suriya böhranına yönəltdi. O cümlədən, dünya ictimaiyyətinin diqqət mərkəzində olan sülh və beynəlxalq təhlükəsizlik, terrorizmə qarşı mübarizə və münaqişələrin həll edilməsi kimi digər qlobal əhəmiyyətli məsələlər də Təhlükəsizlik Şurasının gündəliyi çərçivəsində müzakirələrə çıxarıldı. Prezident İlham Əliyevin "Biz Təhlükəsizlik Şurasında, ilk növbədə, beynəlxalq hüququ və ədaləti müdafiə edəcəyik və müdafiə edirik" – fikri tam təsdiqini tapdı.

Birinci sədrlik dövründə Prezident İlham Əliyevin rəhbərliyi ilə "Terrorizmlə mübarizə sahəsində öhdəliklərin yerinə yetirilməsi ilə bağlı beynəlxalq əməkdaşlığın gücləndirilməsi" adlı yüksək səviyyəli iclas keçirildi. İclasda Azərbaycanın təşəbbüsü ilə "Terror aktlarının beynəlxalq sülhə, təhlükəsizliyə yaratdığı təhdidlər" mövzusunda müzakirələr aparıldı.

2013-cü ilin oktyabrında qeyri-daimi üzv kimi, Azərbaycanın BMT Təhlükəsizlik Şurasında ikinci sədrlik dövrü olmuşdur. Bu dövrdə qurumun gündəliyi beynəlxalq sülh və təhlükəsizliyin təmin olunması ilə əlaqədar mühüm məsələləri əhatə etmişdir. BMT tarixində, ilk dəfə olaraq, ölkəmizin təşəbbüsü ilə oktyabrın 28-də "Birləşmiş Millətlər Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatı arasında tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi" mövzusunda qurumun yüksək səviyyəli iclası keçirilmişdir.

Azərbaycann nüfuzlu quruma uğurlu sədrliyindən sonra ölkəmizin nüfuzlu beynəlxalq təşkilatların üzvü kimi, genişmiqyaslı fəaliyyəti diqqəti daha çox cəlb etməyə başladı. Artq ölkəmizə böyük etimad göstərilirdi. Respublikamızın Avropa Şurasına üzvlüyə qəbul edilməsinin hansı çətin proseslərdən keçməsi hər birimizin xatirindədir. Üzvlüyə qəbul zamanı üzərinə götürdüyü öhdəlikləri layiqincə yerinə yetirilməsi Azərbaycanı Avropa Şurasının fəal və layiqli üzvlərindən birinə çevirdi. Qürurverici haldır ki, respublikamız 2001-ci ildə Avropa Şurasına üzv olduqdan sonra, ilk dəfə, 2014-cü il mayın 14-dən altı aylıq dövr üçün həmin nüfuzlu təşkilatın Nazirlər Komitəsinə sədrlik edib. Həmin dövrdə Azərbaycan Avropa Şurasının fəaliyyətinin əsas sütunlarını təşkil edən insan hüquqları, qanunun aliliyi və demokratiyanın daha da inkişafı istiqamətində mühüm səylər göstərib. Azərbaycanın sədrliyinin prioritetləri Avropa Şurasının gündəliyində duran aktual məsələlər, üzv dövlətlərin qarşılaşdıqları təhdidlər, ölkəmizin müsbət təcrübəsi və fərqli üstünlükləri nəzərə alınmaqla, korrupsiyaya qarşı mübarizə, mədəniyyətlər və dinlərarası dialoq, sosial həmrəylik və sosial davamlılıq, gənclərin hüquqi maarifləndirilməsi kimi sahələr üzrə müəyyən edilmişdi. Ölkəmiz təşkilata sədrliyi dövründə Avropa təhlükəsizliyi sisteminin təməlində dayanan prinsiplərin – plüralist demokratiyanın, qanunun aliliyinin və insan hüquqlarının möhkəmləndirilməsi üçün bütün vasitələrdən bacarıqla istifadə etmişdir.

2019-cu il oktyabrın 15-də Bakıda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (indiki adı Türk Dövlətləri Təşkilatı) VII Zirvə görüşündə təşkilata sədrlik Azərbaycana verildi. Həmin tədbirdə qeyd edildi ki, bu gün Azərbaycan dünya siyasətində xüsusi və mühüm yer tutur. Türk dünyası qardaş Azərbaycanın uğurları barədə bütün xəbərləri sevinclə qarşılayır. Çıxış edənlər inamla dedilər ki, Azərbaycanın quruma sədrliyi ilə iqtisadiyyatın, ticarətin, investisiyaların və digər sahələrin inkişafı üzrə əməkdaşlıq daha da güclənəcək. Azərbaycan Prezidenti, Türk Şurasının yeni sədri İlham Əliyevin sədrliyi qəbul etdiyi vaxt verdiyi vəd layiqincə yerinə yetirildi. Dövlət başçımız demişdi: "Türk Şurasına sədrliyi qəbul edən Azərbaycan bu müddət ərzində ölkələrimiz arasında əməkdaşlığın və dostluğun möhkəmləndirilməsi istiqamətində öz səylərini göstərəcəkdir. Bizi birləşdirən ortaq soykök, tarix, mədəniyyət və milli dəyərlər qarşılıqlı səmərəli fəaliyyətimiz üçün mühüm əsasdır. Türkdilli dövlətlər arasında əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biridir".

Dünyanın siyasi sistemində önəmli bir platformaya çevrilən Türk Dövlətləri Təşkilatı Azərbaycanın ikiillik sədrlik dönəmində Türk dünyasının birləşməsi üçün böyük səylər göstərildi və mühüm əhəmiyyət kəsb edən bir çox tədbirlər keçirildi. Dövlət başçımız bu fəaliyyətinə və Ermənistan üzərindəki tarixi Qələbəyə görə Türk Dünyasının Ali Ordeni ilə təltif olundu.

Qoşulmama Hərəkatı dünyadakı mövcud təşkilatlar arasında istər tarixi, istər üzvlərinin sayı baxımından kifayət qədər sanballı qurumdur. Bu təşkilat dünyada BMT-dən sonra ikinci böyük təşkilatdır və özündə 120 dövləti birləşdirir. Ölkəmizin QH-yə sədrliyi dövründə hərəkatın beynəlxalq nüfuzunun, təsirinin gücləndirilməsi, üzv dövlətlərin marağının, beynəlxalq hüququn və ədalətin müdafiəsi üçün göstərdiyi səylər dünyada etiraf olunur.

Bu qurumun sədri qismində Azərbaycan pandemiyaya qarşı qlobal səylərin səfərbər edilməsi üçün bir sıra beynəlxalq təşəbbüslərlə çıxış edib. Azərbaycanın Qoşulmama Hərəkatına daha bir il sədrlik etməsi Prezident İlham Əliyevin qlobal liderlik fəaliyyətinə verilən yüksək qiymət, o cümlədən, respublikamıza olan inam və etimadın növbəti təzahürüdür. Dünyanın başı üzərini koronavirus pandemiyası aldığı və ağır fəsadlar törətdiyi bir vaxtda Azərbaycan vəziyyətə çevik və adekvat reaksiya verərək, sədrliyini müvəffəqiyyətlə həyata keçirmiş, qarşıya qoyulan məqsədə nail olmuşdur.

Azərbaycanın uğurlu xarici siyasəti ölkəmizin dünya birliyindəki reytinqini getdikcə yüksəldir. Qürurverici haldır ki, hazırda respublikamızın adı dünyanın inkişaf etmiş dövlətləri ilə bir sıradadır. Ötən il noyabrın 10-da Ermənistan üzərində qələbənin rəsmən elan olunması və 30 illik işğala son qoyulması Azərbaycanın dünya birliyindəki reytinqini daha da artırdı.

Ölkəmiz beynəlxalq təşkilatlara uğurla rəhbərlik edir, eləcə də, yüksək səviyyəli görüşləri layiqincə keçirərək, qaldırılan problemlərin həllinə nail olur. Təbii ki, bu, dünənin, bu günün işi deyil. Bütün bu uğurlar düzgün müəyyənləşdirilmiş siyasi kursun məntiqi nəticəsidir.

***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***